# GÖYƏRÇİN

12
2023
İSSN-0207-4710





# AH VƏ OH

*(Özbək xalq nağılı)*

Bir gün Xoca Nəsrəddin bazarda gəzərkən həmyerlisi ilə rastlaşdı. Xocanı görən kəndli kövrəldi, az qala ağlayacaqdı.

Nəsrəddin ona yaxınlaşıb niyə belə kədərli olmasının səbəbini soruşdu.

Kasıb başına gələnləri danışdı. Dedi ki, varlı bir tacirin yanında işə girdim. Namusla, vicdanla, gecə-gündüz işlədim. Zəhmət haqqımı almaq vaxtı çatanda tacir maaşımı vermək istəmədi. Dedi ki, şaftalılarımı silkələyib ağacdan yerə tökən küləyi cəzalandıra bilsən, sənə pul verəcəyəm.

Mən yazıq küləyi necə tutub cəzalandıra bilərdim axı? Bunu bəhanə edən xəsis tacir əməkhaqqımı kəsdi. Pulsuz qaldım.

Nəsrəddin bir ah çəkib dedi:

-Hə, onu mən də tanıyıram. O, şəhərin ən xəsis taciridir. Hamının başına bu oyunu açır. Kefin istəyən qədər işlədir, pul vermək vaxtı gələndə onları min bəhanə ilə qovur.

Həmkəndlisinin dərdini başa düşən Xoca Nəsrəddin ona təskinlik verir və deyir ki, darıxma, sənin intiqamını o şərəfsizdən alacam.

Bundan sonra Xoca Nəsrəddin həmin xəsis tacirin yanına gedir. Deyir ki, ağa, sizin yanınızda işə girmək istəyirəm.

Tacir onu işə götürür. Nəsrəddin düz üç ay onun yanında işləyir. Müqavilə müddəti bitəndən sonra zəhmət haqqını istəyəndə tacir deyir:

-Sən son tapşırığımı da yerinə yetirsən, pulunu verəcəm. Dediyimə əməl edə bilməsən, bəxtindən küs, pulsuz qalacaqsan.

Nəsrəddin soruşur:

-Deyin görüm, mən nə etməliyəm?

Tacir özündən razı halda dedi:

-Bazara gedib mənə "ah" və "oh" alıb gətir.

Nəsrəddin təəccüblənəndə tacir özündən razı halda gülümsünür və düşünür ki, hətta Xoca Nəsrəddin belə bu tapşırığı yerinə yetirə bilməyəcək.

Özünü sındırmayan Xoca Nəsrəddin deyir:

-Baş üstə, ağa, mütləq dediklərinizi alıb gətirəcəm.

Sonra o, bazara yox, şəhər kənarındakı kol-kosluğa gedir. İki zəhərli əqrəb tutub, hərəsini bir pul qabının içinə qoyur.

Nəsrəddinin gəldiyini görən xəsis özündən razı halda əllərini ovuşdurub gülərək deyir:

-Hə, necə oldu, dediklərimi alıb gətirə bildinmi?

-Bəs necə, ayıb şeydi ki...

-Bəs hardadır aldıqların?

Nəsrəddin pul qablarını tacirə uzadıb deyir:

-Buyurun, onlar bu pul qablarının içindədir.

Xəsis əlini pul qabına salan kimi əqrəb onu sancdı. Tacir ağrıdan qışqırdı:

-Ah!

İkinci əqrəb isə onu sancanda daha bərkdən qışqırdı:

-Oh, oh, oh!

Xoca Nəsrəddin bic-bic ona baxıb güldü.

Çarəsiz qalan xəsis tacirin şişmiş barmaqları ilə Nəsrəddinin pulunu sayıb verməkdən başqa çarəsi qalmadı.

Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev